# Turizm sahəsində əməkdaşlığın genişləndirilməsi Azərbaycanı dünyaya daha yaxşı tanıdacaq...

Bu günlərdə Bakıda keçirilən İslam ölkələrinin turizm nazirlərinin V konfransı prioritet bir məsələyə - turizm sahəsində əməkdaşlığın genişləndirilməsinə həsr olunmuşdu. Qonaqları qəbul edən və tədbirdə nitq söyləyən respublika prezidenti İlham Əliyev görüşün əhəmiyyətindən danışmışdır: "Ölkəmizin çox gözəl təbii şəraiti var, doqquz iqlim qurşağı var, 800 kilometrdən çox dənizsahili zonası var. Yəni Azərbaycanda turizmin inkişafı üçün hər cür şərait var. Biz indi bu sahəyə çox böyük diqqət göstəririk. Turizm infrastrukturunun möhkəmlənməsinə çox böyük vəsait qoyulacaqdır. Bununla bərabər, ölkənin bütövlükdə infrastrukturu yeniləşir. Çünki turizmi inkişaf etdirmək üçün mütləq infrastrukturun - yolların, aeroportların və digər obyektlərin yaradılması zəruridir...

Bu gün bu fürsətdən istifadə edib təşkilata üzv olan ölkələrin şirkətlərinə və dövlət orqanlarına da müraciət etmək istəyirəm ki, Azərbaycanın turizm imkanlarından siz də bəhrələnin. Çünki bu sahə Azərbaycanda çox sürətlə inkişaf edəcək, bütövlükdə ölkəmizə çox böyük həcmdə xarici sərmayə qoyuluşu nəzərdə tutulubdur. İstərdik ki, bizim dost, qardaş ölkələrin nümayəndələri turizm sahəsində də iştirak etsinlər. Turizm həm mədəniyyət deməkdir, həm də əlbəttə ki, iqtisadiyyatın böyük sektoru deməkdir, eyni zamanda, ölkələrimizi btrləşdirən amildir. Çünki insanların müxtəlif ölkələrə gəlişi, ölkələrin vəziyyəti, tarixi abidələrlə tanış olması, əlbəttə ki, ölkələri bir-birinə daha da yaxın edir..."

Ölkə prezidentinin çıxışı xarici qonaqlar tərəfindən maraqla qarşılanmış və onlar həmin fikirlərlə həmrəy olduqlarını bildirmişlər.

Elə həmin gün Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi ilə İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (İSESKO) arasında əməkdaşlıq haqqında protokolun imzalanması mərasimi olmuşdur. Sənədi nazir Əbülfəs Qarayev və İSESKO-nun baş katibi Əbdüləziz əl-Varci imzalamışlar. Sənədin müddəalarına uyğun olaraq İSESKO-nun iqamətgahında Azərbaycan mədəniyyəti günləri, ölkəmizdə isə İSESKO mədəniyyəti həftəsi keçiriləcək, musiqi kollektivlərinin qastrolları, sərgiləri, xalq sənəti, kitab nəşri, kinematoqrafiya sahəsində əməkdaşlığı genişləndirmək üçün müvafiq tədbirlər görüləcəkdir...

**X.ASLANOVA**